*Hamlet İsaxanlı*

# Yaxşı nədir, pis nədir?

## Ali təhsilin inkişafı və ali məktəblərin keyfiyyət göstəriciləri haqqında



*Müasir dünyada ali məktəblər ağır rəqabətə, bəzən qlobal rəqabətə davam gətirmək məcburiyyəti qarşısında qalırlar. Bu zaman yeganə çıxış yolu özünü digərlərindən fərqləndirmək, daha yaxşı, daha güclü olduğunu sübuta yetirməkdən ibarətdir. "Yaxşı nədir, pis nədir" suallarına cavabı keyfiyyətdə axtarmaq lazımdır.*

(Əvvəli jurnalımızın 166, 167 və 168-ci nömrələrində)

### Ali məktəblərin güc sıralaması (reytinqi) və nüfuzu

Ali məktəblərin Karneqi təsnifatı Birləşmiş Ştatlarda ali təhsil sisteminin öyrənilməsində və bəzi qərar qəbul etmə məsələlərində müəyyən rol oynamaqdadır. *U.S News and World Report* adlı həftəlik dərgi Karneqi təsnifatından istifadə edərək *ali məktəblərin güc sıralamasının reytinqini* müəyyən edir. Bu, ali məktəblərin bütövlükdə müqayisəsi nəticəsində, ya da ayrıca bakalavr proqramlarının və ya yüksək (magistr, doktor, professional) dərəcələr verən proqramların müqayisəsi ilə əldə edilir. Ayrı sahələr və ixtisaslar üzrə də sıralama aparılır. Çox zaman Karneqi təsnifatında eyni kateqoriyaya daxil olan ali məktəblər öz aralarında sıralandırılır. Başqa sözlə desək, yarış əsasən eyni çəki dərəcəsində olanlar arasında baş verir. Bu sıralama müəyyən maraq doğurur, onun haqqında danışırlar, digər tərəfdən isə bu sıralama (ümumiyyətlə, ali məktəblərin reytinqi) nisbidir, müəyyən subyektiv məqamlara əsaslanır.

*Ali məktəbin nüfuzu incə və mürəkkəb məsələdir.* Tədqiqatda yüksəkdə olmayan ali məktəbdə bakalavr proqramları çərsivəsində tədris keyfiyyətli ola bilər, eləcə də doktorluq / tədqiqat universitəsində bakalavrlıq səviyyəsində tədris müqayisədə çox yüksək keyfiyyətli olmaya da bilər. Təftiş edən mütəxəssislər qrupunun təcrübəsi, sahənin incəliklərinə bələd olması

standartlarda və ümumiyyətlə, dəyərləndirmələrdə olan subyektivliyi azaltmağa imkan verir.

İçtimai rəy ali məktəb haqqında ortalama fikir və obraz formalaşdırır, bu zaman ali məktəbin bir sıra güclü (və zəif) tərəfləri ümumi orta obrazın kölgəsində qala bilir. Azərbaycandan söhbət açarkən öz çevik və geniş dünyagörüşünə malik insanlarımızla yanaşı, zənnimizcə, Qərbdə təhsil almış tələbələr, orada təcrübə keçmiş mütəxəssislər və xaricdən gəlmiş alimlər, müəllimlər, diplomatlar və iş adamları öz müqayisə edə bilmək imkanına görə adətən ali məktəblərimizi daha dəqiq dəyərləndirirlər.

## Təhsildə beynəlxalq əməkdaşlıq. Keyfiyyətdə Avropa ölçüləri

Təhsil beynəlxalq əməkdaşlığın zəruri olduğu və ən sox inkişaf etdiyi sahələrdən biridir. Elm, tədqiqat və elmin tətbiqləri cəmiyyətin inkişafında həlledici rol oynayır. Bu sahədə baş verən hadisələrin böyük qismi ali məktəblərdə cərəyan edir. *Ali məktəblərin, elm ocaqlarının qarşılıqlı əlaqəsi və əməkdaşdığı sayəsində elm və texnologiya zaman boyu nəsildən-nəsilə və məkan boyu ölkədən-ölkəyə ötürülür, başəri qüvvəyə çevrilir.* Ciddi əməkdaşdıq isə tərəflərin müəyyən keyfiyyətdə və səviyyədə olmasını, «eyni havaya sazlanmasını», müəyyən dərəcədə bir-birinə tuş gəlməsini tələb edir. Ali məktəblərarası tələbə mübadiləsi və bir-birinin uğurlarından bəhrələnmək istəyi keyfiyyətə müəyyən dərəcədə ümumi baxışın inkişaf etdirilməsinə gətirib çıxarır. Məsələn, Avropada razılaşdırılmış keyfiyyət ölçüləri varmı?

1991-də Avropa Komissiyası ali təhsildə keyfiyyəti dəyərləndirmək üçün Avropa pilot layihəsini irəli sürdü və həyata keçirməyə başladı. Məqsəd ali məktəbləri müqayisə etmək və ya ranqlaşdırmaq, ya da vahid qiymətləndirmə qurumu yaratmaq deyildi. Əsl məsələ *müxtəlif ölkələrdə qiymətləndirmə mədəniyyətinin yaranmasına kömək* etməkdi. 15 Avropa Birliyi ölkəsində və İrlandiya ilə Norveçdə iki sahədə - bir tərəfdən mühəndislik elmləri, digər tərəfdən isə kommunikasiya/informasiya elmləri və ya incəsənət/dizayn üzrə könüllülük əsasında seçilmiş 46 institut öyrənildi və təhlil edildi (1994/95). Təhlil zamanı həm öz-özünü qiymətləndirmə, həm kənardan baxış tətbiq olunurdu. Son məqsəd isə güclü və zəif cəhətləri göstərmək, inkişaf üçün tövsiyələr vermək idi.

1993-də Avropa rektorlar assosiasiyası (GRE) tərəfindən Avropadakı üç iri klassik universitə çox müxtəlif sahələr üzrə öz-özünü təhlil yolu ilə və kənardan dəvət olunan mütəxəssislərin gözü ilə dəyərləndirildi. Bu, *güclü və zəif tərəfləri aşkara çıxarmaq, inkişaf üçün mövcüd olan imkanları/fürsətləri, eləcə də təhdidləri araşdırmaq* vasitəsilə həyata keçirildi. «Ali məktəbin inkişafına təsir göstərən daxili və xarici manеələr hansılardır?», «Hansı dəyişmələrə ehtiyac duyulur?» suallarına cavab axtarılırdı (manеələrin aşılması yeni imkanların açılmasına gətirib çıxarır!).

## Ali təhsildə keyfiyyətin ölçülməsinə yönələn beynəlxalq layihələr

Ali təhsildə keyfiyyət haqqında daha bir geniş millətlərarası dəyərləndirmə Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının «Keyfiyyət menecmenti, keyfiyyət qiymətləndirilməsi və qərarvermə prosesi» adlı layihəsi oldu (1995-1997). Məqsəd müxtəlif ölkələrdəki keyfiyyət dəyərləndirməsi sistemlərinin məqsəd, metod və gözləntilərini aydınlaşdırmaq və əldə olunan nəticənin idarəolunma və qərar qəbuletmə məsələlərinə göstərdiyi təsiri öyrənmək idi. Bu layihə Avropa, Avstraliya, Kanada və

Meksikada 40 ali məktəbin iştiraki ilə həyata keçirildi.

Avropa Keyfiyyətin Təminatı Şəbəkəsi, Avropa Universitə Assosiasiyası və UNESCO kimi qurumlar da ali təhsildə keyfiyyətin ölçülməsi siyasəti sahəsində fəallıq göstərirlər.

Müxtəlif ölkələrin əməkdaşdığına maraqlı misal olaraq 1989-cu ildə Avstraliya, Kanada, Hong Kong, İrlandiya, Yeni Zelandiya, Cənubi Afrika və Böyük Britaniya (və müşahidəçi statusu ilə Yaponiya) arasında bağlanmış *Vaşinqton Akkordu* adlanan sazişi göstərmək olar. Bu saziş həmin ölkələrdəki akkreditasya sistemlərini qarşılıqlı məqbul saymaqla, akkreditə olunmuş mühəndislik proqramlarını qarşılıqlı etibarlı hesab etdi. Beləliklə, bu ölkələrin birində mühəndislik fakültəsindən məzun olduqda digər ölkədə işədüzəlmə məsələsindəki formal maneələr aradan qaldırılmış oldu.

## Keyfiyyətin yaranmasında iştirak edən əsas amillər/tərəflər

Ali təhsilin həyata keçirilməsində bir-biri ilə sıx əlaqədə olan aşağıdakı dörd amil iştirak edir, əslində isə onlar ali məktəbdə keyfiyyəti təmin etməli olan tərəflərdir, insanlar, qaynaqlar və ideyalardır:

1° Öyrənənlər, müəyyən ali təhsil dərəcəsi (bakalavr, magistr, doktor...) almaq istəyənlər, yəni tələbələr.

2° Öyrədənlər, yəni alimlər, müəllimlər, yüksək ixtisaslı mütəxəssislər.

3° Öyrənənlərlə öyrədənlərin fəaliyyət göstərdiyi şərait və mühit, yəni ali məktəbdəki mənəvi mühit, idarəetmə və maddi-texniki qaynaqlar/şərait.

4° Və nəhayət, müəllimlərin tələbələrə dərs deyərkən əsaslandığı ideyalar və proqramlar, yəni müasir və dinamik təhsil modeli, proqramlar və tədris planları. Öyrənənlər və öyrədənlərlə, şərait, idarəetmə və mühitlə yanaşı nəyin öyrədildiyi (hansı tədris planları, fənn proqramları və hansı dərs kitabları?) həlledici əhəmiyyətə malikdir...

Bu amillər bir-birinə qovuşuq şəkildədir, onların əmələ gətirdiyi harmoniya ali məktəbin qarşısına qoyduğu məqsədə çatmaq yolunun ciddiliyinə və səlisliyinə işarədir. Şərait və mühit elə olmalıdır ki, tələbə öyrənmək istəsin və ya öyrənməkdə çətinlik çəkən tələbə öz uğursuzluğunu dərk edib düşünsün, tədbir görsün və ya kənara çəkilməli olsun; müəllimin öyrətməyə gücü çatsın və həvəsi olsun

## Azərbaycan təhsil sisteminin bəzi xüsusiyyətləri. Keyfiyyətdə «əlavə dəyər»in rolu. Tələbə axıcılığı

Amerika Birləşmiş Ştatları və Qərbi Avropada mühüm hesab olunan keyfiyyət göstəriciləri əsasən universal xarakter daşıyır və digər bölgələrə, ölkələrə, o cümlədən Azərbaycana da uyğundur. Lakin müəyyən fərqlər və istisnalar da mövcuddur. Bu fərqlər əsasən ölkəmizin keçid adlanan iqtisadi durumda olduğundan və uyğun idarəetmə mədəniyyətindən irəli gəlir. İki misal göstərək.

• Tələbələrin hansı qiymətlərlə ali məktəbə daxil olması və qəbulda müsabiqənin nisbətən böyük, ya kiçik olması şübhəsiz ki, mühüm göstəricilərdən biridir. Ancaq burada iki əlavə amil nəzərə alınmazsa məsələ birtərəfli işıqlandırılmış olardı və nəticədə görüntü gerçəkliyi tam əks etdirməzdi. *Birinci, çox vacib cəhət tələbələri ali məktəbin özündə nə dərəcədə ciddi oxutmaqdan, onların aldığı diplomun gücündən ibarətdir*. Təsəvvür edək ki, bir ali məktəb yeni qəbul olunmuş orta biliyə malik tələbəni müasir proqramlar əsasında təhsil və mənəviyyat baxımından ciddi bir mühitdə yetişdirib səviyyəli məzun mütəxəssisə çevirir. Digər ali məktəb isə

yaxşı biliyə malik tələbəni köhnəlmiş proqramlar əsasında və qeyri-ciddi təhsil və mənəviyyat mühitində oxudur və nəticədə həyata və işə hazır olmayan məzun-mütəxəssis yetişdirir (bizim təhsil mühitində bu acı gerçəklikdir). Belə olan halda, zənnimizcə, tələbənin ilkin halı, bilik səviyyəsi deyil, ali məktəbin səviyyəsi (və ya səviyyəsizliyi) ön plana çıxır.

Tələbənin müəyyən tədris intervalının (bir semestr, bir il, tam bakalavr və ya magistr proqramı boyu və s.) başlanğıcındakı və sonundakı uğurları, göstəriciləri arasındakı fərq, daha doğrusu *"son göstərici minus başlanğıc göstərici" ali məktəbin (və tələbənin) "əlavə dəyəri" kimi qiymətləndirilə bilər*. "Əlavə dəyər"in böyüklüyü ali məktəbin (eləcə də tələbə çalışqanlığının, iradəsinin, həvəsinin) gücünü, effektliliyini göstərən mühüm amildir.

*İkinci cəhət isə*, qəbula gələnlərin ali məktəbi çox zaman keyfiyyətə, qarşıda duran perspektivlərə görə deyil, ödənişsiz təhsil alma imkanları baxımından seçmələridir, *yəni qəbula gələnlər heç də hər zaman ürəyinin döyüntüsünə görə hərəkət etmir*. Əlbəttə, cəmiyyətimizdə kök salmış (və indiki dövrdə təhsil sistemində özünü doğrultmayan) bir fikir - «dövlət» sifətinin guya keyfiyyətə, ciddiliyə zəmanət verdiyi düşüncəsi də ətalət nəticəsində tam aradan qalxmayıb. Bu psixoloji amil, eləcə də hökumətin ciddi araşdırma aparmadan dövlət ali məktəblərinə gözüyumulu göstərdiyi kömək və yaxşı özəl ali məktəbə kömək proqramının olmaması valideyn və tələbə olmağa namizədlərin seçimində rol oynayır.

- Ali məktəblərimizdə rüşvətin, imtahan nəticələrinin süni surətdə yuxarı qaldırılması (və bəzən aşağı salınması - ?!) hallarının geniş yayıldığını nəzərə alaraq bizim şəraitdə tələbə tərkibinin sabitliyi (axıcılığın olmaması və ya çox az olması) amilini mühüm keyfiyyət göstəricilərindən biri kimi götürmək doğru olmazdı. (Axıcılıq və sabitlik dedikdə birinci il tələbələrinin bir ildən sonra ali məktəbdə qalıbqalmaması və eləcə də ali məktəbi tərk etmədən bitirməsi məsələsi nəzərdə tutulur). Əksinə, zənnimizcə, güclü tələbələrin öz ali məktəbindən daha keyfiyyətli təhsil verən ali məktəbə getməməsini və eləcə də zəif tələbələrin ali məktəbi vaxtında bitirməsini onların oxuduğu ali məktəb üçün olsa-olsa mənfi qiymətləndirmək lazımdır. (Bu yazının çapa hazırlandığı zaman «The Chronicle of Higher Education» qəzetinin 2004-cü il, 2 aprel buraxılışında Birləşmiş Ştatlarda da tələbə axıcılığı və məzunluq faizlərinin ali məktəblərin qiymətləndirilməsindəki roluna şübhəni əks etdirən baş məqaləyə rast gəldim).

Hal-hazırkı durumda tələbə tərkibindəki sabitlik və ya axıcılıq amilini ali məktəbdə tədrisin ciddi olub - olmaması, *ali məktəbin kadr hazırlığında ciddi süzgəc rolunu oynayıb-oynamaması* baxımından izah etmək daha doğrudur. Ali məktəb, orta təhsil almış insanların içindən bir qismini seçib onlara təhsil verir və tədris prosesində imtahanlar silsiləsi və məzun olmaq üçün müəyyən olunmuş tələbatlar vasitəsilə tələbənin irəliləməsini və mütəxəssisə çevrilməsini tənzimləyən süzgəclər qoyur. Bu süzgəclərdən keçənlər məzun olurlar. Ali məktəbin gücü və səviyyəsi bu süzgəclər silsiləsinin ciddiliyi, obyektivliyi, uyğunluğu və dəqiqliyi ilə birbaşa bağlıdır.

*(ardı var)*